# *Nəcməddin MÜRVƏTOV-70*



Hörmətli Nəcməddin müəllim!

Sizi - Əməkdar müəllim, tanınmış şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik!

Siz ədəbi yaradıcılığa ötən əsrin 90-cı illərində başlamısınız. 1970-ci ildə orta məktəbi bitirərək indiki ADPU-nun (keçmiş V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun) riyaziyyat fakültəsinə daxil olmusunuz. 1974-cü ildə institutu riyaziyyat müəllimi ixtisası üzrə bitirdikdən sonra Dəvəçi rayonunun Böyük Həmyə kənd 8 illik məktəbinə ixtisası üzrə müəllim vəzifəsinə təyin edilmisiz. 1977-ci ildə Böyük Həmyə kənd 8 illik məktəbinə direktor vəzifəsinə, 1978-ci ildə isə Böyük Həmyə kənd orta məktəbinə direktor vəzifəsinə təyin edilmisiz. 2008-ci ildən etibarən Siyəzən şəhər C.Cabbarlı adına 1 saylı orta məktəbində direktor vəzifəsində çalışırsınız. Siyəzən rayon Ağsaqqalar Şurasının sədr müavini kimi rayonun ictimai həyatında fəal iştirak edirsiz. İlk mətbu əsərləriniz - "Ehtiyac", " Şuşa" şeirləri rayon "Çıraq" qəzetində 1993-cü ildə çap olunmuşdur.

Ədəbi fəaliyyətiniz ölkənin tanınmış elm və ədəbiyyat xadimləri tərəfindən yüksək qiymətləndirmiş, respublikanın müxtəlif qəzet və jurnallarında, internet resurslarında barənizdə məqalələr yazılmışdır. Sizin adınız "Azərbaycan yazıçıları XX-XXI yüzillikdə" ensiklopedik məlumat kitabına daxil edilmişdir.

2003-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsüz.

2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmusunuz.

2014-cü ildə "Qızıl Qələm" media mükafatı, 2015-ci ildə Həsən bəy Zərdabi adına ali media mükafatına, Cabir Novruz Mədəniyyət fondunun mükafatına layiq görülmüsünüz.

2015-ci ildən ölkə Prezidenti tərəfindən Azərbaycanın Əməkdar müəllimi adına layiq görülmüsünüz.

Yazıçı kimi Prezident təqaüdünə və Beynəlxalq Rəsul Rza mükafatına layiq görülmüsünüz.

Bundan əlavə Azərbaycn Respublikası Təhsil Nazirliyinin, Respublika Ağsaqqallar şurasının, Təhsil İşçiləri Respublika Həmkarlar Təşkilatının "Qırmızı Aypara" cəmiyyətinin, rayon İcra Hakimiyyətinin, Yeni Azərbaycan Partiyası yerli təşkilatının fəxri fərmanlarına və diplomları ilə təltif olunmusunuz.

"İlk sözüm" (1997), "Etiraf" (2001), "Varım, dövlətim" (2003), "Dünyamıza sözüm var" (2005) və bir çox başqa kitabların müəllifisiniz.

Hörmətli Nəcməddin müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti. - 2023. - 2 dekabr, № 46. - S. 23.